**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Bolqarıstan Respublikasının Əmək və Sosial Siyasət Nazirliyi arasında əməkdaşlıq haqqında**

# MEMORANDUM

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Bolqarıstan Respublikasının Əmək və Sosial Siyasət Nazirliyi (bundan sonra - Tərəflər)

- hər iki ölkə arasında əmək, məşğulluq və sosial təminat sahələrində fəal əlaqələr yaratmaq və inkişaf etdirmək niyyətlərini ifadə edərək;.
- Avropa İttifaqı və Azərbaycan Respublikası arasında mövcud əməkdaşlıq imkanlarına əsaslanaraq, bu Memorandumun Tərəflərin ən qabaqcıl milli təcrübəsini paylaşmaqla, qarşılıqlı faydalı və ikitərəfli əməkdaşlığın genişləndirilməsi istiqamətində öz səylərini birləşdirmək qərarını təsdiqləyərək;
- bu Memorandumun məqsədinin qarşılıqlı maraq kəsb edən sahələrdə uğurlu, faydalı və ikitərəfli əməkdaşlığın qurulmasının qarşılıqlı niyyətə əsaslandığına əmin olaraq;

aşağıdakılar barədə razılaşdılar:

## Maddə 1

Tərəflər aşağıdakı əsas istiqamətlər üzrə birgə təşəbbüsləri həyata keçirərək əməkdaşlıq edirlər:

1. əmək, sosial yardım və sosial təminat sahələrində müvafiq qanunvericiliyin təkmilləşdirilməsi;
2. əməyin təhlükəsizliyi və gigiyenası sahəsində qanunvericilik, o cümlədən onun tətbiqi mexanizmləri;
3. aktiv əmək bazarı siyasətinin inkişafı, işsizlər, işaxtaranlar və sosial müdafiəyə xüsusi ehtiyacı olan qrupların məşğulluq imkanlarının genişləndirilməsi;
4. əmək bazarının tələblərinə uyğun işsiz və işaxtaran vətəndaşların peşə təlimi;
5. sosial müavinətlər sisteminin təkmilləşdirilməsi;
6. sosial müdafiə haqqında qanunvericiliyin təkmilləşdirilməsi, risk qruplarına daxil olan şəxslərin sosial inteqrasiyası üzrə tədbirlər;
7. sosial xidmətlərin təşkili və bu sahədə standartların işlənib hazırlanması, fiziki və hüquqi şəxslər tərəfindən sosial xidmətlərin göstərilməsi;
8. istehsalatda bədbəxt hadisələrin qarşısının alınması üzrə preventiv tədbirlər;

9. əmək qanunvericiliyinin həyata keçirilməsi üzrə əmək müfəttişlikləri tərəfindən görülən tədbirlər,
10. Tərəflərin səlahiyyətləri çərçivəsində müəyyənləşdirilmiş istənilən digər sahə.

**Maddə 2**

Tərəflər arasında əməkdaşlıq aşağıdakı formalarda həyata keçirilir:

a) əmək münasibətləri, məşğulluq və sosial təminat sahələrinin müxtəlif aspektlərinə dair qanunverici, maarifləndirici və digər materialların qarşı Tərəflə mübadiləsi;
b) rəhbərlik və işçi səviyyəsində təlim səfərlərinin mübadiləsi;
c) Nazirliklərinin səlahiyyətlərinə daxil olan məsələlər üzrə hər iki ölkədə keçiriləcək milli və beynəlxalq tədbirlərdə qarşılıqlı iştirak;
d) proqram və layihələrin həyata keçirilməsində əməkdaşlığın təşviq olunması;
e) BƏT çərçivəsində həyata keçirilən beynəlxalq proqram və layihələrdə iştirak edən işçi heyətin Bolqarıstan Respublikasının Əmək və Sosial Siyasət Nazirliyinin Kadrların İnkişafı və Beynəlxalq Təşəbbüslər Mərkəzinin təlimlərində iştirakı;
f) Tərəflərin səlahiyyətləri çərçivəsində müəyyənləşdirilmiş əməkdaşlığın istənilən digər formaları.

**Maddə 3**

Tərəflər nazir/Nazirliyin tabeliyində olan qurum və xidmətlər arasında qabaqcıl təcrübə mübadiləsinin həyata keçirilməsinə dəstək göstərəcəklər.

**Maddə 4**

Bu Memorandumun həyata keçirilməsi ilə bağlı tələb olunan vəsait hər iki Tərəfin müvafiq il üçün ayrılmış büdcə təsisatları daxilində həyata keçirilir.

Memorandum çərçivəsində nümayəndə heyəti və ekspertlərin səfərləri göndərən Tərəfin hesabına və müvafiq milli qanunvericiliyin müddəalarına uyğun həyata keçiriləcəkdir.

**Maddə 5**

Bu Memorandumun icrasının əlaqələndirilməsinə və nəzarət işlərinə cavabdeh qurumlar:

a) Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən - beynəlxalq əlaqələr şöbəsi;
b) Bolqarıstan Respublikasının Əmək və Sosial Siyasət Nazirliyi tərəfindən - Avropa Məsələləri və Beynəlxalq Əlaqələr Direktorluğu.

**Maddə 6**

Bu Memoranduma Tərəflərin qarşılıqlı razılığı ilə onun ayrılmaz tərkib hissəsi olan və 7-ci maddəsi ilə müəyyən olunan qaydada qüvvəyə minən ayrıca protokollar formasında rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

**Maddə 7**

Bu Memorandum onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir. Bu Memorandum 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri bu Memorandumun müddətinin bitməsinə 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 5 (beş) il müddətinə uzadılacaqdır.

Tərəflər artıq müzakirə olunmuş konkret tədbirlərin ləğv olunması haqqında qərar qəbul etmədiyi halda Memorandumun icrasının bu qaydada dayandırılması həmin tədbirlərin icrasına təsir göstərməyəcəkdir.

Bu Memorandum Bakı şəhərində 2011-ci il “14” noyabr tarixində, iki əsl nüsxədə olmaqla, Azərbaycan, bolqar və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Memorandumun təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | **Bolqarıstan Respublikasının Əmək və Sosial Siyasət Nazirliyi** |